**Sabir ƏLƏKBƏROV**
AMK-nın baş müəllimi
Ünvan: Yasamal r. Ə.Ələkbərov küç. 7

# "RAHAB" MUĞAMININ TƏRKİBİ VƏ İFA VARİANTLARINA DAİR

***Xülasə:*** *Təqdim olunan məqalədə Rahab muğamının tərkibləri və müxtəlif variantları haqda məlumat verilir. Öyrənmək prosesində olan hər bir kəs üçün not yazıları gözəl vasitə ola bilər.*
***Açar sözlər:*** *"Rahab", Bəhram Mansurov, muğam*

Azərbaycan muğamları dünya musiqi xəzinəsində özünəməxsus şifahi ənənələri olan bir incidir. İmprovizə olunaraq dəyişmək xüsusiyyətləri, simfoniya səviyyəsində mürəkkəb quruluşa malik olması onu qədim olduğu qədər daim cavan, həmişə yeniləşən, cazibədar, diqqəti cəlb edən etmişdir.

Muğamlar bu günə gəlib çatana qədər müxtəlif dəyişikliklərə məruz qalmış, dövrün tələbinə uyğun inkişaf etmiş və ya kiçilmiş, bəzən də istifadə olunmadığı üçün yaddan çıxmışdır (1, s.164-166). Fədakar musiqi xadimləri daim axtarıb-arayaraq bu inciləri tapmış, yaddan çıxmamağı üçün risalələr, səs yazıları qoyub getmişlər. Bizlərə isə öyrənmək, tətbiq etmək qalır.

Ölkəmizdə muğam sənətinə verilən yüksək diqqət və qayğı nəticəsində yeni yaradıcı gənclər yetişməkdədir. Onlar öz ifalarını zənginləşdirmək, yeni zirvələrə qaldırmaq üçün qədim musiqi ənənələrini öyrənir, yeri gəldikcə öz yaradıcılıqlarında istifadə edirlər.

Muğam nümunələri müxtəlif ifalarda müxtəlif quruluşda ola bilir. Dediklərimizə "Rahab" muğamını nümunə gətirə bilərik. Kiçik həcmli Rahab muğamı əvvəllərdə "Rəhavi" adlanıb. Müxtəlif tərkibdə ifa olunub. 24 şöbə və guşə onun kiçik həcmli olmasını sual altına alır. Həm də bu şöbə və guşələr müxtəlif məqamlara aid olaraq xanəndə və sazəndələrdən xüsusi bacarıq və istedad tələb edib.

XX əsrin əvvəllərindən bu muğam "Rəhavi" deyil, "Rahab" adlanıb, 13 şöbə və guşə daxilində ifa olunub. Daha sonra sadələşib, 9 şöbə və guşəyə qədər kiçilmiş və Üzeyir Hacıbəylinin 1925-ci ildə tədris üçün tərtib etdiyi muğam cədvəlində qərarlaşıb.

Əhməd Bakıxanovun 1952-ci il muğam cədvəlində "Rahab" 6 şöbəyə qədər kiçilmiş, "Bərdaşt", "Rahab", "Şikesteyi-fars", "Mübərriqə", "Əraq", "Məsihi", "Rahaba ayaq" hissələri ilə verilmiş və əsasən bu tərkib müasir ifaların özəyini təşkil edir.

İllər keçdikcə "Rahab" muğamı sadələşib, "Bərdaşt (Əmiri ilə)", "Rahab", "Şikesteyi-fars", "Əraq" , "Qərai", "Məsihi" və "Rahaba ayaq" şöbələri ilə 1982-ci ildə Kamil Əhmədovun tərtib etdiyi cədvəl formasına düşüb.

Həm Əhməd Bakıxanovun, həm də Kamil Əhmədovun tərtib etdikləri “Rahab” muğamı cüzi fərqlərlə bir-birinə bənzəyir. 24 şöbə sonra 13, 9, 6 şöbə və guşədən ibarət olaraq istər-istəməz ifalarda müxtəlifliyi labüd edir.

“Rahab” muğamının vokal variantlarında S.Şuşinski və tələbələrdən Əlibaba Məmmədov, Nəriman Əliyev, Qulu Əsgərov və onların tələbələri eyni şöbə guşələrlə ifa edib öz tələbələrinə öyrədirlər. Artıq dinləyicilər nədən sonra nə oxunacağını əzbər bilirlər. Dinləyicini maraqlandırmaq, heyrətləndirmək üçün bəzi şöbə və guşələri əlavə etsək maraqlı olar.

Azərbaycan Milli Konservatoriyasının mərhum professoru Rafiq Musazadənin 2009-cu ildə tərtib etdiyi proqramda adı çəkilən şöbə və guşələrdən əlavə “Böyük Məsihi”, “Kiçik Məsihi” hissələri yerini tapıb (2, s.41, 56).

İnstrumental ifa variantlarında bəzi dəyişiklikləri müşahidə edirik. Xalq artisti Hacı Məmmədovun ifa etdiyi “Rahab” muğamında özünəməxsus ustalıqla, lakonik, çox cəlbedici, texniki ifa üsulları ilə əvəzolunmaz muğam nümayiş etdirmişdir.

Başqa bir nümunədə xalq artisti Bəhram Mansurovun ifa etdiyi “Rahab” muğamının nə qədər fərqli olan üsullarla, fərqli tərkibdə ola bilməsini görürük. Bəhram Mansurov zəngin təcrübəsinə əsaslanaraq fərqli bir muğam ifa etmişdir. O, “Rahab” muğamını başlayarkən “Bərdaşt”da “Əmiri”ni “Şur” elementi ilə zənginləşdirib, dinləyiciyə muğamın mənsub olduğu “Şur” məqamı haqda xüsusi mesaj verir və fərqli ifanın əsasını qoyur.

Bildiyimiz kimi “Əmiri”, “Şikesteyi-fars” pərdəsində “Segah” məqamına, “Rahab” isə “Şur” məqamına aiddir. Artıq ifanın əvvəlində dinləyiciyə qeyri-adi gəzişmə ilə nələr olacağının anonsunu verir, sonra bir cümlə “Əmiri” çalıb ikinci cümlədə “Rahab”a ayaq edir. Müasir ifalarda üç cümlə, bəzən də dörd cümlə “Əmiri” çaldıqdan sonra “Rahaba” düşürük. Yadımızdan çıxır ki, “Rahab” muğamını ifa edirik, “Əmiri” muğamını yox. Rahab muğamında “Əmiri” və “Rahab”ın göstərilməsi vacibdir. Bəhram Mansurovun ifasını not yazısı ilə göstərirəm:

Rahab Bərdaşt



“Rahab” muğamını iki variantda təqdim edək: “Əmiri” do, “Rahab” sol “Şur” və yaxud “Əmiri” sol “Rahab” re kökündə. Bəhram Mansurov sol mayəli Rahab ifa edib. Hacı Məmmədov isə “do” mayəli “Rahab”ın instrumental ifası zamanı istifadə etdiyi zil-bəm elementləri yerinə düşür. “Bərdaşt”ları zildə gəzişəndən sonra ifaçı “Əmiri” çalıb, sonra “Rahab”a düşür.

***Əmiri bəmdə***




“Rahab” muğamında “Əmiri” “Nəva”nın elementləri ilə daim özünü göstərir. “Nəva” muğamının bir hissəsi sayılan “Nişaburək” “Rahab” muğamında xüsusi yer tutmur. B. Mansurov “Nişaburək”də bir cümlə ifa edib yenə “Rahab”a qayıdır. Bu qayıdışlar hər dəfə yeni elementlər ilə zənginləşdirilir.




Bu muğam "do" mayəsində ifa olunduğu üçün "Şikesteyi-fars"ı zildə ifa etmək yerinə düşür. Hacı Məmmədovun ifasında "Şikesteyi-fars" "Xocəstə" şöbələri zil-bəm ifa olunurdu. B. Mansurov isə "Şikesteyi-fars"ı lakonik göstərib, "Dilruba" şöbəsindən istifadə etməklə yenə fərqli ifa nümayiş etdirmiş olub. "Dilruba" segah məqamına aid olub "Şikesteyi-fars"da istifadə oluna bilir.




B. Mənsurov öz bilik və təcrübəsinə əsaslanaraq "Böyük məsihi" adlanan guşəni bəmdə ifa edib, "Rahab"a qayıdır. Gördüyümüz kimi "Rahab" hər dəfə nümayiş etdirməklə o, əsas məzmunu yaddan çıxmağa qoymur.



“Rahab”ın əsas tanınan hissəsi olan “Təxtigah” adı cədvəllərdə çəkilməsə də, onsuz “Rahab”ın “Mübərriqə” hissəsi göydən düşmüş kimi, başqa bir muğam şöbəsinə bənzəyərdi. B. Mansurov burada da fərqli ifa göstərib, qısa gəzişmədən sonra yenə “Rahab”a qayıdır.




Kulminasiya nöqtəsi kimi əsasən “Əraq” şöbəsini gözlədiyimiz halda o, “Manəndi-Müxalif” şöbəsini özünəməxsus texniki üsullarla ifa edərək o gərginliyi, həyəcanı verə bilir. Bir cümlədən sonra “Mövləvi” hissəsi ilə “Rahab”a qayıdır.



Bəhram Mansurovun bu ifası fərqli “Rahab” nümunəsi kimi öyrənilə bilər. Həmişə, standart ifalar eşitdiyimiz üçün belə qeyri-adi muğam nümunəsi bəzən əcaib görünə bilər. Amma muğamları mükəmməl öyrənmək istəyən hər bir ifaçı belə nümunələr vasitəsi ilə gələcəkdə öz sözünü deyə, muğam ifaçısı, muğam bilicisi ola bilər.

Muğam həmişə öyrənmək tələb edir. Muğamları öyrəndikcə, yaddan çıxmış versiyaları bərpa edib ifaçılığa gətirdikcə eyni zamanda muğamların yeni versiyaları da yaranır. Muğam ifaçılığı bu yolla təzələnərək zamanın tələblərinə də cavab verir.

**ƏDƏBİYYAT:**

1. Zöhrabov R. Muğam. B.: Azərnəşr, 1991. 219 s.
2. Musazadə R., Abdullayev A., Dadaşov F. İnstrumental muğam tədrisi. B.: MBM, 2014, 220 s.
3. Mansurov B. “Rahab” muğamı. Qrammafon valı. Melodiya firması. 1959-cu il.

**Сабир АЛЕКПЕРОВ**
старший преподаватель АНК

**О СТРУКТУРЕ И ОБ ИСПОЛНИТЕЛЬСКИХ ВЕРСИЯХ МУГАМ «РАХАБ»**

***Аннотация:*** *В статье представлена информация о структуре и содержании мугама «Рахаб». Данные нотные пояснения могут стать полезным материалом в учебном процессе подготовки молодых музыкантов.*

***Ключевые слова:*** *Рахаб, Бахрам Мансуров, мугам*

**Sabir ALAKBAROV**
Head teacher of ANC

**ABOUT THE STRUCTURE AND PERFORMANCE VERSIONS OF THE MUGHAM "RAHAB"**

***Abstract:*** *This article provides information about the structure and content of the mugham “Rahab”. These note’s explanations can become a useful material in the educational process of training young musicians.*

***Keywords:*** *Rahab, Bahram Mansurov, mugham*

**Rəyçilər:** professor Ağasəlim Abdullayev;
dosent Malik Mansurov